# AKVAKULTURANIN AZƏRBAYCANDA DAVAMLI İNKİŞAF PERSPEKTİVİ

**Şəhla Ələkbərova, Fərid Mənsurov**

*Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan, shahla.alakbarova.551@gmail.com*

Akvakultura məhsullarının istehlakı 1970-ci illərdəki 10%-dən indiki zamanda təxminən 50%-ə qədər artmışdır. Tədqiqatçılar aşkar ediblər ki, akvakulturanın davamlı inkişafı üçün təkcə faydalarını öyrənib və artırmaqla kifayətlənməməli, həm də onun zərərləri araşdırılaraq azaldılmalı, eləcə də təbii və sosial mühitə digər mənfi təsirləri minimuma endirilməlidir. Buna görə də akvakultura ekoloji cəhətdən davamlı və ətraf mühitin keyfiyyətini qoruyacaq şəkildə inkişaf etdirilməlidir.

Respublikamızda akvakulturanın davamlı inkişaf etməsi üçün yalnız bir neçə zəruri amillər vardır: insanlar bu sektora daxil olmağa qərar verirlər; torpaq sahələri gölməçələrə çevrilir; və ya göllərdə və çaylarda boş yerlərdən istifadə edilir; digər istehsal sahə və amillərindən istifadə edilir; balıq və yosun istehsalına başlanılır və s. Bu nəticələrin ərzaq təhlükəsizliyinə müsbət və ya mənfi təsir edib-etməməsi isə kontekstdən asılıdır.

Akvakulturanın inkişafı yolundakı çətinliklər müvafiq şəxslərin əzmkarlığı və elmi tədqiqat təşkilatlarının cəlb edilməsi sayəsində aradan qaldırıla bilər. Gələcəyə hesablanmış prioritetləşdirmə həm canlı material, həm də metodlar və infrastruktur baxımından bir çox aspektlərin tədqiq edilməli olduğunu göstərir.